Tarix və onun problemləri, №1-2 2009

ÜLKƏR İMAMƏLİYEVA
*AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun dissertantı*

# AZƏRBAYCAN AVROPA ŞURASININ TAMHÜQUQLU ÜZVÜ KİMİ

SSRİ-nin süqutu ilə postsovet məkanında yaranmış müstəqil dövlətlər iki seçim qarşısında qaldı: 1)Qərbə inteqrasiya və inkişaf etmiş Avropa dövlətləri ilə sıx əməkdaşlıq yaratmaq; 2)Şərq idarəçilik üsulunu tətbiq etmək.

Azərbaycanın Qərbə meyl etməsi iki amillə bağlıdır: 1)qısa müddətdə ölkədə siyasi sabitlik yaratmaq, demokratik, hüquqi dövlət quruculuğu, siyasi-iqtisadi islahatlar həyata keçirmək və insan hüquqlarını qorumaq; 2)Azərbaycanın əlverişli geosiyasi mövqeyindən Avropa təşkilatlarını əməkdaşlığa cəlb etmək üçün istifadə etmək.

Suverenləşmə prosesinin yaratdığı problemlərin həlli, təhlükəsizliyin təmin edilməsi beynəlxalq təşkilatlarla əlaqələri inkişaf etdirmək, xarici siyasəti dünya birliyinin qəbul etdiyi normalar və xalqın milli mənafeyinə uyğun dəyərlər əsasında qurmaq tələbatını doğurmuşdur.

Siyasi, mədəni inteqrasiyanın səmərəli forması olan Avropa Şurasının qarşısında Avropanı demokratik və təhlükəsiz regiona çevirmək kimi bir məqsəd durur. Bu, regionda sülhə, siyasi sabitliyə və sosial inkişafa nail olmağa, qarşıya çıxan problemlərin həlli yollarını müəyyənləşdirməyə kömək edir.Bu gün yeni yaranmış dövlət digər ölkələrlə, beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq etmədən, onlarla əlaqə yaratmadan milli təhlükəsizliyini təmin edə bilməz.

Azərbaycanın xarici siyasətində Avropa Şurası ilə əlaqələrin yaradılması xüsusi yer tutur. Məhz bu əlaqələr nəticəsində ölkəmizdə demokratik təsisatlar yaranmış, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu sahəsində müəyyən uğurlar əldə edilmiş, dövlətimiz beynəlxalq nüfuz qazanmışdır.

«Azərbaycanın Avropa Şurasına daxil olmasına münasibətiniz?» sualına tələbələr aşağıdakı cavabları vermişlər:

| № | Cavablar | Faizlə |
|---|---|---|
| 1. | Müsbət | 61,2 |
| 2. | Mənfi | 13,4 |
| 3. | Həm müsbət, həm mənfi | 0,6 |
| 4. | Tərəddüd edirəm | 22,4 |
| 5. | Bu haqda məlumatın yoxdur | 2,4 |

Sorğuya cəlb edilən gənclər arasında «tərəddüd edirəm» cavabını verənlərin çox olmasını məlumatsızlıq və insamsızlıqla izah etmək olar. Belə ki, bu gün insformasiya əsrində yaşasaq da, təəssüf ki, bəzi gənclərdə cəmiyyətin problemlərinə laqeydlik getdikcə artmaqdadır.

«Azərbaycan Avropa Şurasına daxil olduqdan sonra ölkəmizdə hansı dəyişikliklər baş vermişdir?» sualına tələbələr aşağıdakı cavabları vermişlər:

| № | Cavablar | Faizlə |
|---|---|---|
| 1. | İslahatlar həyata keçirilmişdir | 27,2 |
| 2. | İnsan hüquqlarının müdafiəsi və təmin olunması yaxşılaşmışdır | 24 |
| 3. | Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkan yaranmışdır | 9,6 |
| 4. | Demokratikləşmə prosesi sürətlənmişdir | 18 |
| 5. | Heç bir dəyişiklik yoxdur | 21,2 |

Cədvəldən göründüyü kimi Azərbaycanın Avropa Şurasına daxil olmasını və bu təşkilatın cəmiyyətin problemlərinin həllində rolunu təqdir edən gənclərin sayı azdır. Bunu bir sıra səbəblərlə izah etmək olar:

- bəzi gənclərin cəmiyyətdə baş vermiş dəyişikliklərə laqeyd münasibəti və ondan bixəbər olması;
- Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapa bilməməsi;
- Avropa Şurasının Ermənistana ikili standartlardan yanaşması;
- gənclər arasında maarifləndirmə işinin qənaətbəxş olmaması;
- Ermənistanla müqayisədə Azərbaycana qarşı təzyiq mexanizmindən çox istifadə olunması.

24 yanvar 1992-ci ildə Azərbaycan Respublikasının parlamenti Avropa Şurası Parlament Assambleyasının 1989-cu ildə təsis etdiyi "xüsusi dəvət edilmiş qonaq" statusunu almaq üçün Avropa Şurasına müraciət etdi. Müracətin bir müddət cavabsız qalması bir tərəfdən Avropa Şurasının Qafqaz regionuna kimi genişlənməyə hazır olmaması, digər tərəfdən həmin dövrdə təşkilatın Azərbaycana olan münasibəti ilə bağlı idi.

1993-cü ilin ikinci yarısından etibarən Azərbaycan Avropa dəyərləri və standartlarına uyğun demokratik, dünyəvi, dövlət quruculuğu və vətəndaş cəmiyyətini formalaşdırmaq yolunu tutdu.

Ümummilli lider Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və III minillik münasibətilə Azərbaycan xalqına müracətində deyildiyi kimi "Dünya inkişafının indiki mərhələsinin başlıca meylləri mədəni inteqrasiya və qloballaşmadır. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifahının yüksəlməsinə kömək etməlidir".( 2, səh.7)

Azərbaycanın Avropa Şurası ilə əlaqələr yaratmaq istəyi müəyyən səbəblərlə bağlı idi.

- Avropa iqtisadi cəhətdən inkişaf etmiş regiondur. O, beynəlxalq aləmin güc və demokratiya mərkəzidir;
- qloballaşma şəraitində Azərbaycanın Avropa ilə inteqrasiyası onun inkişafını təmin edir;
- Azərbaycan dövlət quruculuğu prosesində Qərb ölkələrinin təcrübəsinə üstünlük verir;
- siyasi və hərbi gücə malik olan Avropa dünya siyasətinə təsir göstərir;
- Avropaya yaxınlaşma Azərbaycanın milli təhlükəsizliyini təmin etməyə imkan verir;

- Azərbaycan Avropaya meyl etdiyi kimi, Avropa da Azərbaycana meyl edir;
- Azərbaycanın əlverişli geosiyasi məkanda yerləşməsi və iqtisadi potensialı Qərbin strateji maraqlarına uyğundur;
- Avropa ölkələri ilə əməkdaşlıq regionda sülhü qorumağa təminat verir.

8 iyul 1996-cı ildə Heydər Əliyevin «Avropa Şurası ilə Azərbaycan Respublikasının əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında» imzaladığı sərəncam 1996-1997-ci illər üçün fəalliyyət planı oldu.

23-25 mart 2000-ci ildə AŞ-ın Siyasi komitəsi Azərbaycanın quruma üzv olduqdan sonra yerinə yetirəcəyi öhdəliklərin siyahısını Milli Məclisə göndərmiş və bu sənəd parlamentdə təmsil olunmuş siyasi partiyaların nümayəndələri tərəfindən imzalanmışdır.

AŞ-ın Azərbaycan qarşısında qoyduğu tələbləri 5 əsas qrupa ayırmaq olar: 1.Avropa sənədlərinin ratifikasiyası. 2.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli. 3.Daxili qanunvericilikdə islahatlar aparmaq (demokratik seçkilər keçirmək, MSK-nı obyektiv qurum kimi formalaşdırmaq; Azərbaycan televiziyası üzərində hakimiyyətin inhisarını ləğv etmək; müstəqil KİV-i yaratmaq).4.İnsan hüquqlarının vəziyyətini yaxşılaşdırmaq (siyasi hüquqların təmin olunması, siyasi məhbusların azadlığa buraxılması və s.). 5.Öhdəliklərin yerinə yetirilməsinin monitorinqini təşkil etmək. Hər bir qrup özündə Avropa Şurasının konkret müddət müəyyənləşdirdiyi bir neçə öhdəliyi birləşdirir.

Azərbaycan Avropa Şurasına daxil olduqdan sonra 17 beynəlxalq sənədi (8 konvensiya; 3 xartiya; 1 imtiyazlar və ümmunitetlər haqqında Baş saziş və ona əlavə protokollar; Beynəlxalq Qırmızı Xaçla əməkdaşlıq haqqında bir saziş; İnsan haqqları haqqında Avropa Konvensiyasına əlavə dörd protokol) imzalamalı idi. Hazırda Azərbaycan bu beynəlxalq hüquqi aktların çoxunu imzalamış və ratifikasiya etmişdir.

Bu vaxtadək Azərbaycan Respublikası Avropa Şurası qarşısında götürdüyü aşağıdakı öhdəlikləri yerinə yetirmişdir:
- beynəlxalq və daxili mübahisələrin sülh yolu ilə tənzimlənməsi;
- Seçki qanunvericiliyinə yenidən baxılması;
- yerli hakimiyyətlərin səlahiyyətlərinin genişləndirilməsi;
- qanunverici orqanda islahatların aparılması və onun möhkəmləndirilməsi;
- yeni Cinayət Prosessual Məcəllənin, «İnsan hüquqları üzrə müvəkkil haqqında», «Korrupsiyaya qarşı mübarizə haqqında»qanunun və dövlət proqramının qəbul edilməsi;
- dini əqidəsinə görə hərbi xidmətdən boyun qaçıran şəxslərin əfvi haqqında aktların qəbul edilməsi;
- «Kütləvi informasiya vasitələri haqqında» və «İctimai təşkilatların qeydiyyatını tənzimləyən» qanuna yenidən baxılması və düzəlişlər edilməsi;
- ictimai televiziyanın formalaşdırılması;
- hökumətin, baş prokurorun, bütün instansiya məhkəmələrinin və konkret hallarda vətəndaşların konstutusiya məhkəmələrinə müraciət edə bilməsi.

Azərbaycan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədikdə o, aşağıdakı hallarla qarşılaşa bilər:
- Avropa Şurasının qəbul etdiyi qərarlar tövsiyə xarakteri daşıdığı üçün o təzyiq mexanizmi kimi sanksiya tətbiq edə bilər;
- Azərbaycanın qurumdakı üzvlüyünə moratorium qoyula bilər (məsələn, Rusiyanın bu qurumdakı üzvlüyü bir müddət dondurulmuşdu);
- Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti səsvermə hüququnu itirə bilər və ya Azərbaycan qurumdan çıxarıla bilər.

Azərbaycanın Avropa Şurasına daxil olarkən götürdüyü öhdəliklərin müzakirəsi hələ də davam edir, öhdəliklərdən irəli gələn tövsiyələr yerinə yetirilir.

17 yanvar 2001-ci ildə Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilmiş və yanvarın 25-də bu münasibətlə rəsmi mərasim keçirilmişdir. Azərbaycan qurumun 42-ci üzvü olmuşdur.

AŞPA-ın sessiyasında çıxış edərkən H. Əliyev demişdir: «Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanıtımışdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır». O, Azərbaycanın bu təşkilatın bütün tövsiyə və tələbələrinə hörmətlə yanaşacağına və onun layiqli üzvlərindən olacağına inandığını bildirmişdir.

Azərbaycan Avropa Şurasına daxil olarkən qarşısına aşağıdakı məqsədləri qoymuşdur: 1.Dövlət müstəqilliyi və ərazi bütövlüyünü qorumaq üçün Avropa Şurasının dəstəyini qazanmaq. 2.Qanunvericilik bazasını Avropa Şurasının tövsiyələri əsasında təkmilləşdirmək. 3.Hüquqi, demokratik, vətəndaş cəmiyyəti yaratmaq. 4.milli mənafeyi qorumaq və milli təhlükəsizliyi təmin etmək. 5.Avropa tələblərinə uyğun islahatlar həyata keçirmək və s.

Dövlət idarəçiliyini təkmilləşdirmək, demokratiyanın, insan hüquq və azadlıqlarının inkişafına təminat yaratmaq üçsün prezidentin təşəbbüsü ilə konstitusiyada dəyişikliklər edilmişdir. 24 avqust 2002-ci il ildə keçirilən referendumda konstitusiyada 8 qrup üzrə 24 maddədə 39 dəyişiklik, 18 mart 2009-cu ildə keçirilən referendumda isə 29 maddədə 41 dəyişiklik edilmişdir.

Göründüyü kimi, Azərbaycanın Avropa Şurasına gedən yolu həm xarici, həm də daxili səbəblərə görə çətin olmuşdur. Azərbaycanın Avropaya inteqrasiyası mürəkkəb bir tarixi dövrə təsadüf etmişdir. Bir tərəfdən cəmiyyətdə daxili sabitlik yaratmaq, dövlət çevrilişlərinin qarşısını almaq, erməni işğalını dayandırmaq, iqtisadiyyatı tənəzzüldən xilas etmək, digər tərəfdən Avropanın dəyər və prinsiplərinə uyğun bir dövlət qurmaq vəzifəsini həyata keçirmək lazım idi.

Demoktratik seçkilər dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların kütləvi iştirak forması olub hakimiyyətin xalqın iradəsi əsasında formalaşması üçün zəmin yaradır, dövlətin və vətəndaş cəmiyyətinin inkişafını şərtləndirir. Dövlət demokratik prinsipləri və seçki hüququ normalarını müdafiə etməklə vətəndaşların seçki və referendumda öz iradəsini sərbəst ifadə etməsinə təminat verir.

| № | Konstitusiyada dəyişikliklər | Münasibət | | |
|---|---|---|---|---|
| | | lehinə | əleyhinə | etibarsız |
| 1. | AR-in AŞ qarşısında götürdüyü öhdəliklərlə bağlı dəyişikliklər | 97,09 | 2,63 | 0,28 |
| 2. | İnsan hüquq. və azad. müdafiəsi haq. Avropa Konv. qoşulmaqla bağlı dəyişikliklər | 97,01 | 2,69 | 0,3 |
| 3. | Referendum. keçirilməsinin. Təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər | 96,82 | 2,83 | 0,35 |
| 4. | Miili Məclisə seçkilərlə bağlı dəyişikliklər | 96,77 | 2,96 | 0,27 |
| 5. | AR prezidentinin seçkiləri ilə bağlı dəyişikliklər | 96,99 | 2,73 | 0,28 |
| 6. | Döv. hakim. orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər | 96,79 | 2,92 | 0,29 |

| | | | | |
|---|---|---|---|---|
| 7. | Məhkəmə islahatlarının keçirilməsi ilə bağlı dəyişikliklər | 96,79 | 2,8 | 0,41 |
| 8. | Digər dəyişikliklər | 96,53 | 2,85 | 0,62 |

Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin (28 iyul 2000-ci il tarixli 222 saylı) icra səviyyəsi ölkəmizin Avropa ailəsində mövqeyinin möhkəmlənməsi üçün zəmin yaradır.

25 yanvar 2001-ci ildə Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı çıxışında Heydər Əliyev demişdir: «Vahid Avropada ikili standartlara yol verilməməlidir. Bizim məkanımız bölünməzdir və bütün münaqişələrə eyni dərəcədə ciddi və prinsipial münasibət göstərilməlidir. Azərbaycan Respublikası qonşu Ermənisatnın geniş miqyaslı hərbi təcavüzünün qurbanı olmuşdur... Dünyanın heç bir yerində belə dəhşətli vəziyyət yoxdur. Amma təəsüf olsun ki, dünya birliyi bu faciəyə biganədir».

2001-ci ildə Azərbaycan Avropa Şurasına üzv olduqdan sonra fəal diplomatik səylər nəticəsində təşkilatın mövqeyində problemin ədalətli həllinə stimul yaranmış, Parlament Assambleyanın tribunasından Ermənistanın işğalçı dövlət olması bəyan edilmiş, qurum münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdar olduğunu bildirmişdir.

Nazirlər Komitəsinin 108-ci sessiyasında Azərbaycan nümayəndə heyətinin ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin əleyhinə çıxmış Ermənistanla bağlı təqdim etdiyi sorğuda Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımamasının AŞPA-nın və beynəlxalq hüququn prinsiplərinə zidd olduğu qeyd edilmişdir. Sorğu əsasında keçirilən müzakirələrdə Nazirlər Komitəsi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən elan etmiş və təşkilatın dəvətilə Ermənistan bu sənədi imzalamışdır.

Avropa Şurasının Parlament Assambleyasının 2001-ci ilin aprelin 24-27-də keçirilən plenar iclasında Azərbaycan nümayəndə heyəti iki dəfə çıxış etmiş, AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış «Ermənistan tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması» adlı yazılı bəyanatı və 14 ölkəni təmsil edən 20 nümayəndənin imzaladığı «Ermənistanı və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları» adlı tövsiyə üçün təklifi AŞPA-nın rəsmi sənədləri kimi yaymağa müvəffəq olmuşdur.

Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin mütəşəkkiliyinin artması, arqumentlərinin möhkəmlənməsi sayəsində Parlament Assambleyasının 2001-ci il payız sessiyasında İ.Əliyevin çıxışından sonra Avropa Şurasının qətnaməisndə ilk dəfə Ermənistanın Azərbaycan ərazisini işğal etməsi faktı öz əksini tapmışdır.

Parlament Assambleyasının 26 sentyabr 2001-ci ildə keçirilən sessiyasında Avropa Şurasına qəbul edilərkən Azərbaycan və Ermənistanın götürdüyü öhdəliklərin icra vəziyyətinin müzakirəsi zamanı İ.Əliyev faktlar və sübutlarla qətnamələrə Azərbaycanın xeyrinə müəyyən düzəlişlərin edilməsinə nail olmuşdur. Avropa Şurasında yayılan sənədlərə «Dağlıq Qarabağda zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi» və «Dağlıq Qarabağda ekoloji vəziyyət haqqında» adlı daha iki rəsmi sənəd də əlavə edilmişdir.

İ.Əliyev çıxışında ermənilərin işğal etdikləri Dağlıq Qarabağ ərazindən narkotik maddələrin yetişdirilməsi və dünyanın müxtəlif terrorçu təşkilatlarına silah satışı üçün ...də etdiyini AŞPA deputatlarının nəzərinə çatdırmışdır.

...003-cü illərdə İlham Əliyevin (27 yanvar 2003-cü ildə o, AŞPA-nın sədr ...üzvü seçilmişdir) təşəbbüsü ilə erməni separatizmini ifşa edən və döv...nəlxalq imijinin formalaşmasına zəmin yaradan 17 qətnamə qəbul

edilmişdir ki, onun 14-ü Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti ilə bağlıdır.

İlham Əliyev bütün çıxışlarında ermənilərin türk dünyasına qarşı yeritdiyi siyasəti tənqid edərək deyir: «Azərbaycan heç vaxt öz torpağında iki erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi - bütün imkanlardan istifadə edib öz doğma torpaqlarını azad edəcəkdir», **«Qarabağsız Azərbaycan olmayacaqdır!»**

## *ƏDƏBİYYAT*

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərbaycan, 2002, 118 səh.
2.Azərbaycan XXI əsrin üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı: BDU, 134 səh.
3.Heydər Əliyev – Ümummilli lider. Bakı: Azərbaycan, 2004, 776 səh.
4.Avropa Şurası və Azərbaycan sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.
5.Vəliyev Adil. Azərbaycan- Avropa Şurası.Demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Bakı: Elm 2006, 235 s.
6.İmaməliyeva Ülkər. Azərbaycanın Avropa Şurası ilə əlaqələri: siyasi əməkdaşlığın istiqamətləri. Bak: 2007, səh. 168.

**УЛЬКЕР ИМАМАЛИЕВА**
***Диссертант Института Философии, Социологии и Права НАНА***

## АЗЕРБАЙДЖАН КАК ПОЛНОПРАВНЫЙ ЧЛЕН СОВЕТА ЕВРОПЫ

В статье уделяется внимание процессу сотрудничества с Советом Европы. Определяется реальное состояние взаимоотношений между Азербайджаном и Советом Европы, направления политического сотрудничества и их перспективы, отношение данной организации к нашей стране.

**ULKER IMAMALIYEVA**
***Postgraduate of the Institute of Prylosophy, Sosiology and Low ANAS***

## AZERBAIJAN AS A FULL MEMBER OF EUROPEAN COUNCIL

In article it was paidattention to the establishment and development of relations between Azerbaijan and the Council of Europe. The main purpose of the present thesis is to analyse the current state and perspectives of these relations and main directions of the political cooperation between Azerbaijan and the Council of Europe.

***Rəyçilər: f.e.n.N.İbadov, t.e.d.İ.X.Zeynalov.***
***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Politologiya və və siyasi sosiologiya şöbəsinin 23 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***